

**VAQİF YUSİFLİ,**
**filologiya elmləri doktoru**

# QİYAMƏT GÜNÜ OLARSA...

**Əziz Yaşar -artıq dörd kitabın müəllifi -"Qiyamət" adlı bir roman yazıb və bu, adi bir roman olmadığı üçün haqqında müəyyən fikir söyləməyə ehtiyac duydum.**

Öncə oxuduqlarımdan, bildiklərimdən Qiymət (Məhşər) nədir sualını aydınlaşdırım. Dini ədəbiyyatda buna aid bir çox fikirlərlə qarşılaşırıq.

Qiyamət günü - günlərin ən dəhşətlisi və ən qorxulusudur. Qiyamət günü bütün ölülər diriləcək və cəmi insanlar etdikləri əməllərə görə cavab verəcəklər.Qiyamət günü bütün insanların həqiqəti açıqca görəcəkləri gündür. O günü inkar edən bir insan qarşılaşacağına inanmadığı, ya da həyatı boyunca düşünməkdən qaçdığı axirət həqiqəti ilə qarşı-qarşıya qalacaqdır. Dünyada iman etməməyin nəticələrini öz gözləri ilə görəcək. Həyatı boyunca nəfsinə görə hərəkət etdiyi üçün və Allahın razılığını düşünmədiyi üçün sonsuz əzab ilə qarşılaşacaq, bundan böyük peşmançılıq duyacaqdır.

Qiyamət günündə yaşanacaq hadisələrlə bağlı Allahın Quranda bildirmişdir "(Yadda saxla! Qiyamət günü) elə bir gündür ki, Yer (yer kürəsi) başqa bir yerlə, göylər də başqa göylərlə əvəz olunacaq (Yer dəyişib başqa cür yer, göylər də başqa cür göylər olacaq; onların mahiyyəti, şəkli o qədər dəyişəcək ki, tanınmaz hala düşəcəklər) və bütün insanlar (qəbirlərindən çıxıb haqq-hesab üçün) hər şeyə qalib olan tək Allahın hüzurunda duracaqlar!." (İbrahim Surəsi, 48)

### *Quranda inkarçılar üçün*

**bu çətin gün, "din günü", "hesab və cəza günü", "axirət günü" kimi adlarla adlandırılmaqdadır. Uca Allah insanların hamısını yeni yaradılışla təkrar diriltdəcəkdir. O gün Allahı inkar edənlər ilə iman edənlərin ayrılacaqları, bölüklər halında əbədi yurdlarına girəcəkləri gündür.**

**"O gün neçə-neçə üzlər tutulub qaralacaq. (Sahiblərinin) bel sümüklərinin dəhşətli bir əzabla qırılacağını anlayacaqdır!" (Qiyamət Surəsi, 24-25)**

O gün günahkarların etdikləri pis əməllərə şahid olanlar da orada hazır olacaqlar. Möminlər, yazıcı mələklər və Allahın gətirdiyi şahidlərlə yanaşı, inkarçıların əleyhinə şahidlik edənlərin arasında heç gözləmədikləri şahidləri də vardır. Bunlar, insanın özünü yalnız, tək saydığı vaxtda belə Allahın onu gördüyünə sübut olan dəqiq dəlillərdir. İnkarçıların əleyhinə şahidlik edənlərin arasında, öz eşitmə, görmə duyğuları və dəriləri də vardır. Hər biri Allahın izniylə danışır və nöqsansız olaraq söyləməsi lazım olanları, şahid olduqlarını bildirirlər. Bunu Uca Allah Quranda belə bildirmişdir: "Onlar öz dərilərinə: **"Nə üçün əleyhimizə şəhadət verirsiniz?" deyəcəklər. Dəriləri də belə cavab verəcəkdir: "Hər şeyi dilə gətirən Allah bizi danışdırdı. Sizi ilk dəfə yoxdan yaradan Odur. Siz Onun hüzuruna qaytarılacaqsınız. Siz qulaqlarınızın, gözlərinizin və dərilərinizin əleyhinizə şəhadət verəcəklərindən qorxub (günah işləməkdən) çəkinmir, etdiyiniz əməllərin çoxunu isə Allahın bilməyəcəyini zənn edirdiniz."" (Fussilət Surəsi 21-22)**

Bu günün bir başqa xüsusiyyəti də, insanların hesaba tək çəkilmələridir. Həm dünyada, həm də axirətdə yaxınlarından yardım görəcəyini umanlar hesab günü onlardan uzaqlaşacaq və tək başlarına hesab verəcəklər. Rəbbimiz, Quranda belə xəbər vermişdir: "Onların hamısı Qiyamət günü Onun hüzuruna tək-tənha gələcəklər." (Məryəm Surəsi, 95)

Klassik ədəbiyyatımızja, xüsusilə, poeziyamızda Qiymət, Məhşər anlayışı demək olar ki, birmənalı şəkildə öz təsdiqini tapmış və heç bir siyasi məna daşımamışdır, yalnız dini təsəvvürlə bağlı olub.. Onlarla, hətta yüzlərlə misallar gətirə bilərik. Ancaq ikisi ilə kifayətlənmək olar. Füzuli bir qəzəlini belə başlayır:

*Məhşər günü görüm, dərəm ol sərvqaməti,*
*Gər onda görünməsə, gəl gör qiyaməti.*

Mənası budur ki, aşiq sərv boylu gözəlinin üzünü, heç olmasa, qiyamət günü görsün. Onda da gözəli görmək mümküyn olmasa, aşiq yenə nə qiyamətlər qoparacaq,-onu bir Allah bilir. Həm də aşaq qiyamət qoparsa dla, qoparmasa da, gəl özün gör ki, həqiqi qiyamət necə olur.

Füzulidən əvvəl Nəsimi həmımıza məhşur olan bir qəzəlində qiyamət gününün böyük bir ayrılığa səbəb olduğunu əyan edirdi:

*Məhşəri-yövmül-hesab, qopdu qiyamət başıma,*
*Yəni ey Yusif sifətli piri-Kənan ayrılar.*

### *Azərbaycan nəsrində*

də Qiyamət günü -Məhşər çox az sayda əsərlərdə bu və ya digər dərəcədə öz əksini tapıb. Məsələn, İsa Hüseynovun "Məhşər" və Yusif Səmədoğlunun "Qətl günü" romanlarında prosesin dini-əfsanəvi görümləri deyil, sadəcə, həmin anlayışın doğurduğu reallıqlar nəzərə çarpır. "Məhşər"də təsvir olunan Nəsimi-Teymurlənc dövrü əsl qiyamət günün xatırlalır. "Qətl günü"ndə isə ölümlər,




itimlər ("Ölümünüz xeyir. Ölümə qənşər") təsvir olunan üç dövrün ictimai-siyasi-əxlaqi mənzərəsini Qiyamət günlərinə təşbih edir.

Əziz Yazarın "Qiyamət" romanı isə "gerçək fantastika" kimi təqdim edilir və burada "gerçək" sözünü heç cür "fantastika"dan ayırmaq mümkün deyil. Hər şeydən əvvəl ona görə ki, biz XX yüzillikdə baş verən hadisələrin bu fantastika daxilində izləyə bilirik.Hətta romandakı bir sıra obrazların kimlər olduğunu da təxmini yox, lar əslini, "orijinalını" görürük.

Əziz Yazar Qiyamət gününün "çertyojunu" yaxşı cızıb. Əvvəlcə "qədimdəki Çapıqbaş kralın ölkəsində qəfildən qiyamət qopdu. Sən demə.ö "qiyamət günü" ayrıca bir ödkədə də ola bilərmiş-bu qədim tarixi müasir ölkədə indicə baş verdiyi kimi". Hər kəsi dəhşətə gətirən gurultular, kiçik vulkanlar, parçalanmalar, hər yerdən püskürməyə başlayan ölümlər... Və neçə əsr bundan öncə ölən insanların dirilməsi. XVI əsrdən XXI əsrə qədər insanlığın "ayrıca bir ölkədə" necə devolvasiyaya uğraması, maddi və mənəvi itkilərlə üzləşməsi və nəticədə qiyamət gününün qopmasına gətirib çıxarması - romanın qayəsi budur.

**Təbii ki, Yusif Səmədoğlunun "Qətl günü"ndə bunlar real bədii lövhələrlə təsvir olunur, amma Əziz Yazarın romanında bütün bu gerçəklər fantastik priyomlarla əks etdirilir. Əslində, bu fantastikanın özünə də biz reallıfq prizmasından yanaşırıq. "Qiyamət"də fəlsəfi bir ideyanın çözələnməsi ilə qarşılaşırıq. Kitaba ön söz yazan həmkarım Əsəd Cahvngirin dediyi kimi: "Bu ideyanı dərk etmək insandan mənəvi-ruhi oyanış, idraki dirilmə tələb edir. Qiyamət elə bil daxili intibah, oyanış, dirilmə deməkdir. O, ilk öncə insanın içində, ruhunda, mənəvi-idraki dünyasında baş verir. Nə qədər ki, bu idraka varmamışıq, gələcəyə gedən yolumuz bağlıdır! Qiyamət məhz bu yolu açmaq naminə qopur".**

"Daxili intibah, oyanış, dirilmə"- amma romanda təsvir olunan insanların çoxu bu barədə düşünmürlər, onların bəziləri öz günahları ilə qiyamət gününə gəlirlər. "Millət", "istiqlar" sözlərini sadəcə bir maska kimi dilinə geyinən birisi niyyətini gizlətmir, məqsədi hakimiyyətə gəlmək imiş. Hər işdə bimrinci olmaq imiş. Amma o,məşuqu tərəfindən bldürülür. Xanım Diana torpaqlarını satmaq üçün ərini yoldan çıxarır və s. Günahsızlar da az deyil Pırtlaşıq saçlı kişi bir qatilin qurbanına çevrilir.Nə qədər istəsən, belə qurbanların sayı çox.

### *Orta əsrlərin zülm və haqsızlıq üstündə*

bərqərar olan hakimiyyət iearxiyası, kralların, şahların müstəbidlik, "parçala, hökm sür" prinsipləri vərəsəliklə sonrakı əsrlərdə də davam edir. Yüz illər boyu yad qonşuların torpaqlarımıza göz tikməsi və Xəritəbaş kralın təhriki və köməyi ilə ərazimizin bir hissəsinin işğal faktı, "Zülmət bağlarnda" baş verən qırğınlar həmin o vərəsəliyin davamı deyilmi? "Çapıqbaş hiyləgər idi. Gizlicə qonşu xalqla torpaqlarımızı sövdələşməyə başlamışdı...Qonşularla aramızda müharibə alovlandı. Bizim hər üç nəfərə bir qılıncımız vardı. Dəmək olar ki. silahsızdıq. Qonşu xalqı isə Başısapıq silahlandırırdı. Onlara gizlicə hətta döyüş ilxısı da göndərmişdi. Və müharibədə xeyli torpağımızı mənimsədilər".

Əziz Yazar fantaziyaya nə qədər meyl etsə də, yenə o fataziyanın gerçəkliyə söykəndiyini görürük. Vaxtilə, hakimiyyətdə olan birisi "qoz" sözünü tez-tez dilinə gətirirdi və bu səbəbdən da xalq arasında ironiya hədəfinə çevrilən Birinci katibin "faciəsini" xatırlayır: "Əkdim, qozların yeyilib yetişən vaxtı Tanrı bəlası gəldi. Qozumuzu yeyib yedirtməmiş qarğa buludu iki günə apardı hamısını. O katib ki, Çapıqbaşın kölgəsiydi".